**S.İ.ƏLİYEVA**
*baş müəllim*
*e-mail: sonasi83@mail.ru*
**:https://orcid.org/0000-0002-2696-4292**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

**10.62021/0026-0028.2025.2.279**

# AİLƏNİN ƏNƏNƏVİ FUNKSİYALARI

***Xülasə.*** *Ailənin mahiyyətini, insanın, cəmiyyətin, doğulan körpələrin həyatında necə mühüm əhəmiyyət daşıdığını anlamaq ailənin dayaqlarını sarsıtmağa qoymur. Ər və arvad qarşılıqlı münasibətlərini, ailə daxilindəki ünsiyyət və rəftarını, davranışını düzgün qurur, yaranan ixtilaflar zamanı hissin hökmünə tabe olmağı deyil, ağlın hökmünü əsas tutur. Ailə münasibətlərinə sosial- psixoloji amillərlə yanaşı, maddi-iqtisadi vəziyyəti, ailə üzvlərinin maddi ehtiyaclarının ödənilməsi səviyyəsi və imkanları çox ciddi təsir göstərir. Ailənin təsərrüfat-iqtisadi, tərbiyə və bərpaedici funksiyaları onun sosial-iqtisadi həyatının başlıca sahəsini əks etdirir.*

***Açar sözlər****: ailə, funksiya, tərbiyə, iqtisadi, sosial, münasibət*

***Giriş.*** Ailə münasibətlərinin incəliklərinin tədqiq olunması, ailədə qarşılıqlı münasibətlərin səmərəli və düzgün qurulması baxımından böyük əhəmiyyət kəsb edir. Məqalə aktual problemin araşdırılmasına həsr edilmişdir. Yəni tədqiqatda başlıca yeri ailə münasibətlərinin tənzimindəki milli-etnik xüsusiyyətlərin aşkar edilməsi tutur.

Bu cür tədqiqat və araşdırmalar xalqımızın öz tarixi keçmişinə dərindən bələd olmasına, özünü düzgün dərk etməsinə, yəni müsbət etnik xüsusiyyətlərimizlə yanaşı, nöqsan və çatışmazlıqlarımızı da yaxşı başa düşməyə, onların arada qaldırılmasının optimal yol və vasitələrini tapmağa, başqa sözlə, ailə münasibətlərinin tənzimində ər və ziyanlı adət və ənənələrimizdən xilas olmağımıza kömək etmiş olar.

Ailə nədir? Müasir ensiklopediyalarda və lüğətlərdə ailəyə aşağıdakı təriflər verilir:

Ailə – nikah, yaxud qan qohumluğuna əsaslanan kiçik qrupdur. Ailə üzvləri bir-birinə məişət birliyi, mənəvi cavabdehlik və qarşılıqlı köməklə bağlıdır [1, s. 187].

Ailə nikah, yaxud qan qohumluğuna əsaslanan kiçik qrupdur. Onun üzvləri bir-biri ilə məişət birliyi, qarşılıqlı məsuliyyət və qarşılıqlı köməklə bağlıdır [5, s. 602].

Nəzərdən keçirdiyimiz təriflərdə ailəni səciyyələndirən iki mühüm xüsusiyyət – a) məişət birliyi, b) özünəməxsus münasibətlər sistemi, qarşılıqlı cavabdehlik, məsuliyyət və kömək qeyd olunur. Bu xüsusiyyətlər qarşılıqlı əlaqədədir, ailəni xarakterizə edərkən onları birlikdə nəzərdən keçirmək lazımdır. Özünün bu xüsusiyyətinə görə ailə bütün digər kiçik qruplardan (məsələn, dostlar dəstəsindən, yataqxanada eyni otaqda yaşayan adamlardan, birlikdə işləyən manqa üzvlərindən və s.-dən) fərqlənir.

Ailədə cinslər və cinsi tələbatdakı irəli gələn münasibətlər əxlaqi-psixoloji münasibətlər formasında özünü göstərir. Biz bu münasibətləri ümumi şəkildə qarşılıqlı cavabdehlik, məsuliyyət və kömək kimi xarakterizə etdik.

Ailənin mahiyyətini, insanın, cəmiyyətin, doğulan körpələrin həyatında necə mühüm əhəmiyyət daşıdığını anlamaq ailənin dayaqlarını sarsıtmağa qoymur. Ər-arvad qarşılıqlı münasibətlərini, ailə daxilindəki ünsiyyət və rəftarını, davranışını düzgün qurur, yaranan ixtilaflar zamanı hissin hökmünə tabe olmağı deyil, ağlın hökmünü əsas tutur.

**Əsas hissə.** Ailənin özünəməxsus funksiyaları vardır. Funksiya (function) latın sözüdür: mənası icra, fəaliyyət deməkdir. Ailənin funksiyaları dedikdə onun həyat fəaliyyətinin başlıca istiqamətləri nəzərdə tutulur. Bu baxımdan onun aşağıdakı funksiyalarını fərqləndirmək olar: reproduktiv, təsərrüfat-iqtisadi, tərbiyə və bərpaedici funksiyalar.

Ailənin funksiyaları qarşılıqlı əlaqədədir. Onlar, hər şeydən əvvəl ailənin sosial mahiyyətini əks etdirir. Ailənin funksiyaları ictimai-tarixi xarakter daşıyır. Onların məzmunu sosial amillərlə – ailəyə cəmiyyət tərəfindən verilən tələblər, ailə hüququ və əxlaqi, mədəni normalar, cəmiyyətin ailəyə göstərdiyi real yardım və s. ilə müəyyən olunur. Lakin bununla yanaşı kiçik qrup kimi ailə üçün xarakterik olan bütün xüsusiyyətlər özünün həyatı mənasını onun funksiyalarında tapır. Özünün müvafiq funksiyaları ilə ailə kiçik qrupların digər növlərindən köklü surətdə fərqlənir. Bu haqda aydın təsəvvür əldə etmək üçün ailənin funksiyaları ilə ayrı – ayrılıqda tanış olaq.

**Ailənin reproduktiv funksiyası** onun həyatının mühüm bir sahəsini – uşaqların doğulması sahəsini əhatə edir. Valideynlər neçə uşaq istəyirlər? Onlar ailənin inkişafını necə planlaşdırırlar? Bu suallar ilk baxışda nə qədər sadə görünsə də, ailənin reproduktiv funksiyasının məzmununu əsasən aydın ifadə edir. Ailədə uşaqların miqdarı onun həyat tərzinin mühüm cavabıdır.

Ailənin inkişafı da uşaqların dünyaya gəlməsi ilə bilavasitə bağlıdır. Hazırda ailənin planlaşdırılmasından, sözün həqiqi mənasında, ictimai planlaşdırmanın formalarından biri kimi bəhs etmək olar. Bu gün hər bir ər-arvad, nəinki uşaqların sayını, habelə onların təxmini doğulma vaxtını, bir sıra hallarda övladla sonrakı körpələr arasındakı müddəti planlaşdırır.

Ailədə neçə uşağın olması məsələsini ər-arvad birlikdə həll edirlər. Kənar mülahizələr rol oynamır. Lakin uşağın sayı barədə qərar müəyyən amillərin təsiri altında qəbul oluna bilər. Bunun bəzi səbəblərdən irəli gəlməsi mümkündür. Şəhər həyat tərzinin genişlənməsi, yaşayış sahəsinə tələbat, qadının məşğuliyyəti, eləcə də müəyyən ictimai vəzifə daşıması, tələbatın artması və s. belə səbəblərdəndir. Lakin bunlar əslində həlledici amil deyildir. Əsas məsələ ər-arvadın psixoloji yetkinliyi və hazırlığıdır. Həyatda eyni şəraitə malik neçə-neçə ailə vardır. Bəzisində bir, bəzisində iki-üç, bəzisində beş-altı uşaq olur. Doğrudur, çoxuşaqlı ailələr müəyyən maddi çətinlikilərlə qarşılaşırlar. Lakin həmin uşaqlar boya-başa çatdıqda hər birisi ailəyə, ata-anaya həyan olur. Çoxuşaqlı ailələrdə boşanmaya da nadir hallarda rast gəlinir. Azuşaqlı ailələrə nisbətən, çoxuşaqlı ailələrdə tərbiyə edilmiş uşaqlar daha sərbəstdir, kollektivdə öz yerini tez tapır, ətrafdakılarla ünsiyyət bağlamağı bacarır, mehriban, qayğıkeş, iltifatlı, səmimi olurlar. Bu keyfiyyətlərin kökü isə şübhəsiz ailədən gəlir. Üç-dörd uşaqlı ailə daha optimaldır. Belə miqdar əhalinin geniş təkrar istehsalında cəmiyyətin tələblərinə cavab verir və qohumluq əlaqələrinin tam uyğunluğunu duymaqda ailə üzvlərinə kömək göstərir. Xüsusi uşaqcanlı valideynlər, əlbəttə, daha çox övlad böyüdə bilərlər. Bu, təqdir edilir.

Sağlam mühit, ər-arvadın bir-birinə qayğı və nəvazişi, bir-birini başa düşməsi, lazım güzəştə getməyi bacarması və s. uzunömürlülüyün və çoxuşaqlı ailələrin meydana gəlməsinin şərtlərindəndir. Belə ailələrin üzvü olmaq necə də xoşdur… 168 il yaşamış Şirəli Müslümovun sonuncu övladı, o, 128 yaşında olarkən dünyaya gəlmişdir. Respublikamız çoxuşaqlı ailələrin sayına görə də seçilir.

A.Q.Xarçevin fikrincə, keçmişdə doğum hallarının say etibarilə böyük olmasının səbəbi ondan ibarətdir ki, o, ailənin möhkəm və davamlı olması üçün müəyyən ehtiyat yaratmaq şüuruna əsaslanırdı. Ata-analar uşaqlar arasında ölüm hallarının geniş yayıldığını istər-istəməz nəzərə alırdılar. Hətta tam təmin olunmuş ailələrdə belə doğulan körpələrdən yalnız müəyyən qismi böyüyüb boya başa çatırdı. Uşaq ölümü də doğum kimi adət edilmiş hadisə idi.

İki dəfə Sosialist Əməyi Qəhrəmanı, adlı-sanlı pambıq ustası Şamama Həsənova dörd uşaq anası idi. Neçə-neçə nəvəsi var idi. Sosialist Əməyi Qəhrəmanı, pambıq ustası Sürəyya Kərimovanı xatırlamaq kifayətdir. O, Ağdam rayonundakı “Telman” adına kolxozda manqa

başçısı idi. S.Kərimova həm fəal ictimai xadimdir, həm də qayğıkeş, mehriban anadır, beş qız, beş oğul dünyaya gətirmiş, tərbiyə etmiş, "Qəhrəman ana" adına layiq görülmüşdür.

Bəzi qadınlar isə ailə həyatının başlıca probleminə yüngül münasibət bəsləyirlər. Onlar "gəzmək", "dolanmaq", "kef etmək", "gün görmək" üçün bir müddət uşağın doğulmasının qarşısını müxtəlif yollarla alırlar.

Bununla əlaqədar olaraq iki cəhətə diqqəti cəlb etmək lazımdır. Birincisi, uşağın sağlamlığı, həm də ananın yaşından asılıdır. Həkimlərin fikrincə, ilk körpəsini 20-24 yaşlarında dünyaya gətirən anaların uşaqları daha sağlam olurlar. 30 yaşından sonra doğulan ilk uşaqların tam sağlam olmaması ehtimalı da artır.

İkincisi, doğuşun qarşısı süni yollarla alınanda, bu hətta bəzi hallarda əsl faciə ilə qurtarır: qadın nəinki xəstələnir, həm də sonsuz qalır, analıq səadətindən məhrum olur.

Qadınlar bəzən "kişilərin nə vecinə" deyirlər. Körpənin həyatının ilk illərində onun tərbiyəsinin əsas ağırlığı ananın üzərinə düşür. Kişilər ananın vəziyyətini yüngülləşdirmək üçün hər şeyi görsələr də, onlar südəmər körpənin əziyyətli günlərində bəzən öz vəzifələrini aydın təsəvvür edə bilmirlər. Bir çox hallarda onların bu sahəyə lazımi səriştəsi də olmur.

Biz belə kişilərə haqq qazandırmırıq və qazandıra bilmərik. Ailənin planlaşdırılmasında və uşaqların böyüdülməsində atanın da rolu böyükdür. O, uşaq qayğılarını ana ilə bilavasitə bölüşdükdə ailədə öz-özünə yaxşı mənəvi psixoloji iqlim yaranır. T.M.Afanasyeva göstərir ki, əgər uşaqlar bir-birinin ardınca doğulursa, onda vaxt itkisi əslində eyni olur. Hətta qüvvə də. Ana ilk və yeganə uşağına iki, hətta üç uşağa sərf edir. Əvvələn, körpəyə qulluq etməyi, onu yedirtməyi bilməmək və bacarmamaq onu həddindən artıq yorur. İkinci uşaqla bir çox işlər, demək olar avtomatik həyata keçirilir.

İkincisi, ilk körpə daha çox diqqəti özünə cəlb edir, əsəb gərginliyinin daha çox sərf olunmasını istəyir. Ona görə də ataya-anaya yapışır, onların dalınca düşür, əl çəkmir. Uşaq iki, üç olanda bir-biri ilə oynayırlar. İkinci uşağa sərf olunan maddi xərclər də azalır. Birinci uşağın paltarlarını ikincisi geyinir. Uşaq xəstələnəndə isə bir uşağa nisbətən, ana ikisi ilə bir o qədər də çox məşğul olmur. Körpənin sağlamlığı valideynin qəlb rahatlığından çox asılıdır. Yeganə körpəsi olan, daim onu itirəcəyindən qorxan ana dinclik tapa bilmir.

Fransız tədqiqatçılarının hesablamalarına görə, qadınların peşə sahəsində intellektual qabiliyyətləri ən çox uşağın doğulduğu 20-30 yaşlarda aşağı düşür. Deməli, qadının doğub-doğmamasından asılı olmayaraq, orqanizm onun enerjisini işdən yayındırır. Qocalıqda özünün maddi və mənəvi tələbatını dolğun ödəmək üçün valideynlərə bir yox, bir neçə uşaq lazımdır. Çoxları bunu lazımınca dərk etmək istəmirlər. Axı, cəmiyyətin bütün maddi və mənəvi sərvətləri dünənki uşaqlar və nəvələr, mövcud maddi qüvvə tərəfindən yaranır. Ölkənin iqtisadi qüdrəti, onun əmək qabiliyyətinə malik olmayan əhalisini təmin etmək imkanı onların sayından çox asılıdır. Əgər burada əmək qabiliyyəti olanların və "yeyənlərin" tənasübü pozularsa, təbii ki, əvvəlki əməyə görə müvazinətləndirmənin xarakteri tamamilə başqa cür, arzu ediləndən çox-çox aşağı olacaqdır.

Ailənin təsərrüfat-iqtisadi və bərpaedici funksiyalarının da əhəmiyyəti böyükdür. Təsərrüfat-iqtisadi funksiyası ailə münasibətlərinin müxtəlif tərəflərinin – ailənin təsərrüfatı, büdcəsi, idarə olunması, əmək mühiti, evdə kişi və qadın əməyinin xüsusiyyətləri, uşaqların əmək vəzifələri və s.-ni əhatə edir.

Tərbiyə geniş anlayışdır. Bizim ölkəmizdə o, cəmiyyətin başlıca funksiyasına çevrilmişdir. Uşaqları təkcə ailə deyil, uşaq bağçası, məktəb, texniki-peşə məktəbi və başqa sosial universitetlər tərbiyə edir. Bu mürəkkəb və çoxcəhətli prosesdə ailənin özünəməxsus yeri vardır. Uşaq ana və ata, bacı və qardaş ilə emosional cəhətdən bağlıdır. Ailə tərbiyəsinin sirlərini də, görünür, məhz burada axtarmaq daha düzgün olardı.

Ailənin tərbiyə funksiyası çoxcəhətlidir: əxlaq tərbiyəsi, estetik tərbiyə, əqli tərbiyə, fiziki tərbiyə, siyasi tərbiyə, əmək tərbiyəsi… – bunların hamısı əsas istiqamətləridir. A.S.Makarenko göstərir ki, uşaqları tərbiyə etmək həyatımızın mühüm sahəsidir. Bizim uşaqlar ölkə-

mizin gələcək analar və atalarıdır, onlar özləri də öz uşaqlarını tərbiyə edəcəklər. Bizim uşaqlarımız böyüyüb gözəl vətəndaş, yaxşı ata və ana olmalıdır. Lakin iş bununla qurtarmır: bizim uşaqlarımız – bizim qocalığımızdır. Düzgün tərbiyə bizim xoşbəxt qocalığımızdır, pis tərbiyə bizim gələcək dərdimizdir, bizim gələcək göz yaşlarımızdır, bizim başqa adamlar qarşısında, bütün ölkə qarşısında təqsirimizdir. Ailə insan üçün sağlamlaşdırıcı, psixoterapevtik mühitdir.

Ailənin bərpaedici funksiyası bu cəhəti nəzərə alır. Biz özümüzün dərdimizi də, kədərimizi də ailədə unuduruq. İşdə nə qədər yoruluruqsa-yorulaq, evə gələndə, uşaqlar «ana» deyib qucağımıza atılanda, boynumuza sarılanda və biz də onun o üzündən bu üzündən öpəndə gözlərimizdə dünyanın mənası dəyişir, qolumuza yeni qüvvət gəlir, həyat yoldaşının bir xoş sözü və ya qılıqlı baxışı adama dünya dolu sevinc bəxş edir. Ana, ata və uşaqların ünsiyyəti, onların istirahəti üçün mənəvi psixoloji şəraitin yaradılması, asudə vaxtın səmərəli təşkili – ailənin bərpaedici funksiyası müxtəlif yollarla belə həyata keçirilir.

Ailənin təsərrüfat-iqtisadi, tərbiyə və bərpaedici funksiyaları onun sosial-iqtisadi həyatının başlıca sahəsini əks etdirir.

Tədqiqat sübut edir ki, gənclər məhəbbət, nikah, ailə münasibətləri, uşaqların tərbiyə olunması, ailədə mənəvi və psixoloji iqlimin hökm sürməsi və s. bu kimi məsələlərlə yaxından maraqlanırlar. Onlar qarşılıqlı məhəbbət əsasında ailə qurmağa, uğurlu nikaha və xoşbəxt ailəyə üstünlük verirlər. Odur ki, həmin gənclər məhəbbətə, nikaha, ailəyə ciddi münasibət bəsləyirlər. Ailə – xoşbəxtliyin mənbəyidir. Gənclərin qənaətincə, təcrübəsizlik nəticəsində, insan bəzən sevgisində, daxil olduğu nikahda yanılır, ailə xoşbəxtliyinə çata bilmir.

Aparılmış müşahidə, söhbət və müsahibə zamanı aydınlaşdırdıq ki, valideynlər müasir oğlan və qızları psixoloji baxımdan lazımi səviyyədə səciyyələndirməkdə çətinlik çəkir, məhəbbətin psixoloji xarakteristikasını ər və arvad harmoniyasının əsası kimi nəzərədən keçirə bilmirlər.

Ailə problemlərinin araşdırılması və onların ictimai-siyasi, sosial-psixoloji proseslər zəminində öyrənilməsi xüsusi aktuallıq kəsb edir. O, cəmiyyətin ilkin özəyidir. Ailə fəal bir başlanğıcdır. Cəmiyyət aşağı pillədən yuxarı pilləyə doğru inkişaf etdikcə, o da aşağı formadan yüksək formaya keçir. Ailə və nikah münasibətləri ilə əlaqədar olan bütün adət normaları onları doğuran və yaşadan ictimai-iqtisadi amillərdən irəli gəlir.

Ailə münasibətləri sosial psixologiyanın çox mürəkkəb problemlərindən biridir. Məqalədə onlar konkret material əsasında işıqlandırılır. Bu materiallar ailə psixologiyasını yeni faktlarla zənginləşdirir.

Tədqiqatın nəticələrindən gənclərin ailə həyatına hazırlanması proqramlarında, ailədaxili münasibətlərin profilaktikasında, ailələrin möhkəm təməllər üzərində qurulması üçün həyata keçirilən tədbirlər sistemində istifadə edilə bilər.

***İşin elmi nəticəsi.*** Ailənin mahiyyətini, insanın, cəmiyyətin, doğulan körpələrin həyatında necə mühüm əhəmiyyət daşıdığını anlamaq ailənin dayaqlarını sarsıtmağa qoymur. Ər-arvad qarşılıqlı münasibətlərini, ailə daxilindəki ünsiyyət və rəftarını, davranışını düzgün qurur, yaranan ixtilaflar zamanı hissin hökmünə tabe olmağı deyil, ağlın hökmünü əsas tutur. Nikahın mahiyyətini, nikah ittifaqına girməyin insanın üzərinə necə böyük məsuliyyət qoyduğunu anlamaq, nikahın bağlanması qaydalarına və şərtlərinə bələd olmaq, nikahı qoruyub saxlamağın təkcə bu ittifaqda olan tərəflər üçün deyil, bütün ailə üzvləri, uşaqlar üçün necə əhəmiyyət daşıdığını başa düşmək və buna görə məsuliyyət hiss etmək gənclərin ailə həyatına uğurla hazırlanmasını təmin edir.

***İşin elmi yeniliyi.*** Ailə münasibətləri sosial psixologiyanın çox mürəkkəb problemlərindən biridir. Məqalədə onlar konkret material əsasında işıqlandırılır. Bu materiallar ailə psixologiyasını yeni faktlarla zənginləşdirir.

***İşin tətbiqi əhəmiyyəti.*** Məqalənin nəticələrindən gənclərin ailə həyatına hazırlanması proqramlarında, ailədaxili münasibətlərin profilaktikasında, ailələrin möhkəm təməllər üzərində qurulması üçün həyata keçirilən tədbirlər sistemində, valideyn-övlad qarşılıqlı münasibətinin optimallaşdırılmasında istifadə edilə bilər.

**Ədəbiyyat**


1. Azərbaycan Sovet Ensiklopediyası. – Bakı, – c.1. – 1976. – 648 s.
2. Əliyev, R.İ. Mən. Atam-anam. Sevgilim və övladlarım / R.İ.Əliyev, – Bakı – 2019, – ADPU.
3. Əlizadə, S.H. Ailə psixologiyası. Metodik vəsait / S.H.Əlizadə, – Bakı: – 2017.
4. Əzimov, Q.E. Yaş və pedaqoji psixologiyanın müasir problemləri / Q.E.Əzimov, – Bakı, – 2006, – 516 s.
5. Fəlsəfə üzrə ensiklopedik lüğət . – M., – 1983.
6. Həvilov, H.A. Azərbaycan etnoqrafiyası / H.A.Həvilov, – Bakı: Elm, – 1991.
7. Qurbanova, L.M. Ailənin psixoloji problemləri və həlli yolları / L.M.Qurbanova, – Sumqayıt, – 2013.
8. Çələbiyev, N.Z. Ailə və gender psixologiyası / N.Z.Çələbiyev, Ü.A.Əfəndiyeva, – Bakı: ADPU, – 2021.


**S.I.Aliyeva**

**Traditional Functions of the Family**

***Summary***

Understanding the essence of the family, how important it is in the lives of people, society, and babies, does not allow the foundations of the family to be shaken. Husband and wife establish their mutual relations, communication and attitude within the family, and their behavior correctly, and in case of disagreements, they do not obey the judgment of the senses, but the judgment of the mind. Along with social-psychological factors, the material-economic situation, the level and possibilities of meeting the material needs of family members have a very serious impact on family conflicts. The family's economic, educational and restorative functions reflect the main area of its social and economic life.

***Key words**: family, function, education, economic, social, relationship*

**С.И.Алиева**

**Традиционные функции семьи**

***Резюме***

Понимание сущности семьи, того, насколько она важна в жизни людей, общества и детей, не позволяет поколебать устои семьи. Муж и жена устанавливают свои взаимоотношения, общение и отношение внутри семьи, свое поведение правильно, а в случае споров подчиняются не суждению чувств, а суждению разума. Наряду с социально-психологическими факторами на семейные конфликты весьма серьезное влияние оказывают материально-экономическое положение, уровень и возможности удовлетворения материальных потребностей членов семьи. Экономические, воспитательные и восстановительные функции семьи отражают основную сферу ее социально-экономической жизни.

***Ключевые слова:** семья, функция, воспитание, экономический, социальный, отношение*

*Rəyçi: prof. E.A.Hüseynov*

*Redaksiyaya daxil olub: 28.04.2025*